# Şəhidlik zirvəsi şərəf, qürur və hünər simvoludur

**Şəhidlər - müstəqilliyimiz, torpaqlarımızın ərazi bütövlüyü uğrunda Vətənin hər qarışı üçün canlarından keçən, ölümün gözünə dik baxaraq müasir Azərbaycanın qəhrəmanlıq salnaməsini yazan igid oğullarımızdır. İgid oğullarımız ölümləri ilə bir həqiqəti təsdiqlədi: Vətənin bölünməzliyini təmin etmək hər birimiz üçün ən ümdə vəzifədir. Vətənin müdafiəsi kimi müqəddəs amal uğrunda mübarizə apararaq şəhid olub əbədiyyətə qovuşan qəhrəmanlarımızı yad etmək hər birimizin borcudur.**



*Bugünlərdə Naxçıvanda vətənpərvər, igid oğullarımız dərin ehtiramla yad edildilər.*

### Şəhid Nihat Quluzadənin xatirəsinə həsr olunmuş tədbir keçirilib

Ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpası uğrunda 2023-cü il 19-20 sentyabr tarixlərində həyata keçirilən lokal xarakterli antiterror əməliyyatları zamanı qəhrəmancasına şəhidlik zirvəsinə ucalan Quluzadə Nihat Qasım oğlunun doğum günü münasibətilə Ordubad rayonunun Unus kəndində şəhidimizin məzarı ziyarət olunub, üzərinə tər güllər düzülüb.

Bugünlərdə keçirilən anım tədbirində Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli, Rayon İcra Hakimiyyətinin əməkdaşları, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların nümayəndələri, şəhid ailələri, müharibə iştirakçıları, hərbçilər, məktəb kollektivi və kənd ictimaiyyətinin üzvləri iştirak ediblər.

Tədbirdə şəhidimizin əziz xatirəsi dərin ehtiramla yad edilib, ruhuna dualar oxunub. Çıxışlarda Nihat Quluzadənin həyat yolu və döyüş fəaliyyəti barədə ətraflı məlumat verilib, onun Vətənə sədaqəti, göstərdiyi igidlik və qəhrəmanlıq nümunələri xüsusi vurğulanıb. Bildirilib ki, ölkəmizin ərazi bütövlüyünün müdafiəsi, müstəqilliyimizin qorunması və suverenliyimizin tam bərpası uğrunda canlarından keçən qəhrəman şəhidlərimizin xatirəsi xalqımız tərəfindən daim uca tutulur, şəhid ailələri və müharibə iştirakçıları dövlət başçısının xüsusi diqqət və qayğısı ilə əhatə olunurlar.

Tədbirin sonunda orta məktəb şagirdləri tərəfindən şəhidlərin xatirəsinə həsr olunmuş vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib.



### Şəhid leytenant Zamin Məmmədovun xatirəsi ehtiramla anılıb

Babək rayonunun Nehrəm qəsəbəsində Vətən uğrunda şəhid olmuş leytenant Zamin Allahverdi oğlu Məmmədovun əziz xatirəsi dərin hörmət və ehtiramla yad edilib. Anım tədbiri çərçivəsində şəhidin məzarı ziyarət olunub, üzərinə tər çiçəklər düzülüb, ruhuna dualar oxunub.

Tədbirdə Babək Rayon İcra Hakimiyyətinin başçısı Ovni Muradov çıxış edərək Vətən uğrunda şəhid olan qəhrəmanlarımızın xalqımızın qüruru olduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən igid övladlarımızın xatirəsi daim uca tutulur. Qeyd olunub ki, şəhidlərimizin qəhrəmanlığı milli ruhumuzun ən parlaq təcəssümüdür, onlar Vətən sevgisinin, mərdliyin və fədakarlığın rəmzləridir. Vurğulanıb ki, gənc nəsil bu qəhrəmanların həyat yolundan nümunə götürməli, Vətənə sədaqət və məsuliyyət hissi ilə xidmət etməlidir.

Tədbirdə çıxış edən digər natiqlər şəhid leytenant Zamin Məmmədovun keçdiyi şərəfli döyüş yolundan, göstərdiyi igidlikdən və yüksək vətənpərvərlik nümunəsindən söz açıblar. Onun mübarizliyi, peşəkarlığı və Vətən uğrunda göstərdiyi fədakarlıq Babək gəncləri üçün örnək kimi dəyərləndirilib.

Şəhid leytenant Zamin Allahverdi oğlu Məmmədov 5 oktyabr 1985-ci ildə Babək rayonunun Nehrəm qəsəbəsində anadan olub. 1992-ci ildə orta məktəbə daxil olub, 2000-2003-cü illərdə orta təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə başa vurubdur. Hərb sənətinə böyük maraq göstərən Zamin Məmmədov liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil alıb.

Ali hərbi təhsilini uğurla başa vurduqdan sonra leytenant rütbəsi ilə ordu sıralarında xidmətə başlayan Zamin Məmmədov öz istəyi ilə cəbhə bölgəsinə - Ağdam istiqamətinə göndərilib. Xidmət dövründə cəsarəti, peşəkarlığı və Vətənə sədaqəti ilə seçilib.

2008-ci ildə döyüş zamanı ayağından güllə yarası alan leytenant Zamin Məmmədov müalicə olunduqdan sonra yenidən döyüş mövqeyinə qayıdaraq xidmətini davam etdirib. 2011-ci il yanvarın 25-də Ermənistan silahlı qüvvələrinin Ağdam rayonunun Cəvahirli kəndi istiqamətində açdığı atəş nəticəsində şəhidlik zirvəsinə ucalıb.

Onun Vətən uğrunda göstərdiyi qəhrəmanlıq və fədakarlıq xalqımızın yaddaşında daim yaşayacaqdır.



### Şəhid kapitan Şamil Babayev mövlud günündə yad edilib

Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqla Azərbaycan tarixində silinməz iz qoyan, adını xalqımızın yaddaşına qızıl hərflərlə yazdıran igidlərimizdən biri - Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının kapitanı, şəhid Şamil Baloğlan oğlu Babayevin mövlud günü münasibətilə yanvarın 26 da Culfa rayonu Camaldın kəndində şəhidin məzarı ziyarət olunub, üzərinə tər çiçəklər düzülüb, ruhuna dualar oxunub, xatirəsi böyük ehtiramla yad edilib, ailə üzvlərinə dərin hörmət və ehtiram ifadə edilib.

Mərasimində Culfa Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə və müəssisə rəhbərləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, kapitan Şamil Baloğlan oğlu Babayev 1988-ci il yanvarın 26-da Culfa rayonunun Camaldın kəndində anadan olub. 2005-2006-cı illərdə müddətli həqiqi hərbi xidmətdə olub, 2010-cu ildən etibarən müddətdən artıq hərbi qulluqçu kimi xidmətə başlayıb. İlk xidmət yeri Daxili Qoşunların Xüsusi Təyinatlı dəstəsi olub. Zabit olmaq və hərbi biliklərini daha da artırmaq məqsədilə 2012-ci ildə Daxili Qoşunların Ali Hərbi Məktəbinə qəbul olunub, 2014-cü ildə təhsilini başa vurduqdan sonra xüsusi təyinatlı dəstənin "Atəş təminat qrupu"nun komandiri vəzifəsinə təyin edilib. 2018-ci ildən Türkiyədə keçirilən xüsusi təlimlərə cəlb olunub.

2020-ci ildə "kapitan" hərbi rütbəsi alan Şamil Babayev Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Şuşa istiqamətlərində gedən döyüşlərdə yüksək peşəkarlıq və fədakarlıq nümayiş etdirib. O, 8 noyabr 2020-ci il - Zəfər Günündə Şuşa uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

Şəhid kapitan Şamil Babayev göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Zəfər" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*Bəxtiyar ƏLİYEV*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*